√

# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 79

**Bakı şəhəri** «08» oktyabr 2010-cu il

**"Tibbi statistikanın təkmilləşdirilməsi barədə"**

Respublikanın səhiyyə sistemində həyata keçirilən islahatlar çərçivəsində yeni kompüter texnologiyaları əsasında beynəlxalq standartlara uyğun tibbi statistik məlumatlarının toplanması, tibbi yardımın keyfiyyət göstəricilərinin (indikatorların) müəyyənləşdirilməsi və onların qiymətləndirilməsi metodlarının tərtib edilməsi, beynəlxalq informasiya layihələrinə inteqrasiya sisteminin yaradılması vasitəsilə tibbi statistika işinin təkmilləşdirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru C.Məmmədova tapşırılsın:

1.1. respublikanın aparıcı mütəxəssisləri və beynəlxalq ekspertlər cəlb edilməklə tibbi statistika sahəsində qüvvədə olan əsas hesabat və qeydiyyat formaları Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən yenidən işlənərək Səhiyyə Nazirliyinə təqdim olunsun;

1.2. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadə ilə birlikdə yeni hesabat və qeydiyyat formalarının kompüter bazasına daxil edilməsi məqsədilə müvafiq proqramların işlənməsi barədə təkliflər hazırlanaraq Səhiyyə Nazirliyinə təqdim edilsin.

2. Əmrin icrasına nəzarət Nazir müavini A.Vəlibəyova həvalə edilsin.

**Oqtay Şirəliyev**

Əmrin layihəsini SEN sektoru hazırlamışdır:

Sektor müdiri V.Qasımov

İcraçı O.Səlimov

Razılaşdırılıb:

Nazir müavini A.Vəlibəyov

Nazir müavini N.Əliyeva

Baş məsləhətçi-hüquqşünas E.Əzizov

ÜŞ
SENS
TYTŞ
KETŞ
BHM
İSİM
SİM

*000936*